**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT İQTİSAD UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**EYYUB ƏFŞƏR OĞLU MUSAYEV**

# AZƏRBAYCANDA SOSİAL XİDMƏTLƏR SFERASININ TƏNZİMLƏNMƏSİ İSTİQAMƏTLƏRİ

**İxtisas: 5304.01- "İqtisadi fəaliyyət növləri"**

**İqtisad üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

**A V T O R E F E R A T I**

**BAKI – 2016**

Dissertasiya işi Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin "Əmək və Sosial Problemlər üzrə Elmi-Tədqiqat və Tədris Mərkəzində" yerinə yetirilmişdir.

**Elmi rəhbər:** iqtisad elmləri doktoru, professor
**Fərhad Pənah oğlu Rəhmanov**

**Rəsmi opponentlər:** iqtisad elmləri doktoru, professor
**Gülənbər Arif qızı Əzizova**

iqtisad elmləri namizədi, dosent
**Könül Asəf qızı Ağayeva**

**Aparıcı təşkilat: Azərbaycan Texniki Universitetinin "Sənaye İqtisadiyyatı və Menecmenti" kafedrası**

Müdafiə "14" noyabr 2016-cı il tarixdə saat 16.00-da Azərbaycan Dövlət İqtisad Universitetinin nəzdində İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutunda iqtisad üzrə fəlsəfə doktoru alimlik dərəcəsi almaq üçün təqdim olunan dissertasiyaların müdafiəsini keçirən FD.02.052 dissertasiya şurasının iclasında keçiriləcəkdir.

Ünvan: Az 1001, Bakı şəhəri, İstiqlaliyyət küçəsi 6, Azərbaycan Dövlət İqtisad Universiteti, İqtisadi Araşdırmalar Elmi-Tədqiqat İnstitutu.

Dissertasiya ilə Azərbaycan Dövlət İqtisad Universitetinin kitabxanasında tanış olmaq olar.

Avtoreferat _____ oktyabr 2016-cı il tarixində göndərilmişdir.

**FD 02.052 Dissertasiya**
**şurasının elmi katibi, i.ü.f.d.** **dos. S.A.Abbasova**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Tədqiqatın aktuallığı.** Azərbaycanda iqtisadi islahat prosesləri sosial dəyişikliklərin əhəmiyyətinin intensiv artmasına dəlalət edir. Ölkədə innovativ iqtisadi artımın özünəməxsus xüsusiyyəti fərqli mənəvi prinsiplər və hədəflərlə səciyyələnən keyfiyyətcə yeni insan potensialı tələb edir. Sosial sahədə bununla bağlı baş verən dəyişikliklər vətəndaşlar üçün sosial istehlakın yüksək səviyyəsini, o cümlədən ahıl yaşda insanların layiqli həyat səviyyəsini təmin etməyə imkan verən, əsas sosial nemətlərin hamı üçün əlçatan və keyfiyyətcə münasibliyinin təmin edilməsinə yönəldilməlidir.

"Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında insan kapitalının inkişafı ilə bağlı sektorlarda islahatlar mütləq prioritetlər kimi müəyyən edilmiş, sosial siyasət sahəsində proqramların effektivliyini artırmaq məsələsi qarşıya qoyulmuşdur. Bununla əlaqədar, sosial fəaliyyətin əsas hədəfləri müəyyən edilmişdir. Buraya tibbi yardımın keyfiyyətinin artırılmasına və xüsusilə də əhalinin aztəminatlı qrupları üçün əlçatan olmasına, dərman təminatının yaxşılaşdırılmasına yönəldilmiş tədbirlərin hazırlanması, sosial müdafiə və sosial xidmətlər sisteminin effektivliyinin artırılması, ilk növbədə, ahıl və əlil vətəndaşlara sosial yardımın təqdim edilməsinin mövcud mexanizmlərinin təkmilləşdirilməsi məsələləri daxildir.

Azərbaycan dövlətinin əhalinin həyat səviyyəsinin yüksəldilməsinə və onun keyfiyyətinin yaxşılaşdırılmasına yönəldilmiş strategiyası ölkədə sosial xidmətlər sisteminin effektivliyinin artırılması zərurətini şərtləndirir. Cəmiyyət, hətta dərin iqtisadi böhran dövründə də əhalinin həyat təminatı sisteminin mühüm hissələri olan sosial müdafiənin və sosial xidmətlərin inkişaf səviyyəsinin azalmasına yol verməməyə çalışır.

Bu mövzunun aktuallığı həm də sosial xidmətlərin ölkənin həyatında rolu və əhəmiyyəti, dövlətin sosial strategiyası ilə, həmçinin sosial sahədə aparılan islahatların elmi cəhətdən ümumiləşdirilməsi zərurəti ilə müəyyən edilir.

Sosial xidmətlər sistemi iqtisadiyyatın və dövlət tərəfindən həyata keçirilən sosial siyasətin mənəvi meyarıdır. Bu halda söhbət təkcə qazanılmış uğurların qorunmasından deyil, həm də xidmətlərin çeşidinin genişlənməsi və keyfiyyətinin artırılmasından, sosial xidmət sferasının maliyyələşdirilməsi üçün yeni, büdcədənkənar mənbələrin cəlb edilməsindən gedir. Sosial xidmətlər sistemində aparılan islahatlar məhz bununla şərtlənmişdir. Bununla yanaşı, islahatların gedişinin nəzəri cəhətdən ümumiləşdirilməsi, onların həyata keçirilməsi mexanizmlərinin dərin təhlili ilə bağlı araşdırmalara rast gəlinmir. Bu sahədə baş verən dəyişikliklər arasında uyğunsuzluq, fəaliyyətin köhnə formalarından azad olmaqda ləngimə

müşahidə olunur, müasir şəraitdə sosial xidmətin fəaliyyətinin bütöv iqtisadi mexanizminin yaradılması çətinləşir.

Bu sahədə qəbul edilən strateji qərarların çoxu, xüsusilə də qanunvericilik səviyyəsində daha dəqiq araşdırma və uzlaşdırma tələb edir, çünki onun tənzimlənməsi üçün dəqiq işləyən mexanizmin yaradılması bu qərarlardan asılıdır.

Azərbaycan Respublikasında həm dövlətin sosial siyasətində, həm də endogen və ekzogen mühitin başqa amillərinin təsiri altında ölkə iqtisadiyyatının inkişaf səviyyəsində baş verən dəyişikliklərə uyğun olaraq, əhaliyə sosial xidmətlər sisteminin daim təkmilləşdirilməsinə və inkişaf etdirilməsinə ehtiyac duyulur.

Ona görə də respublika əhalisinə sosial xidmət sahəsində mövcud problemlərin və aktual məsələlərin həllini təmin etməyə imkan verən hərtərəfli tədqiqatların yeni forma və metodlarının işlənib hazırlanması zəruridir.

Bununla əlaqədar, sosial xidmətlər sahəsinin tənzimlənməsinin effektivliyinin artırılması problemləri xüsusi aktuallıq kəsb edir.

**Mövzunun öyrənilmə səviyyəsi.** Azərbaycan Respublikasında yeni fəaliyyət sahəsi və yeni ixtisas olan sosial işin və sosial xidmətlər institutunun formalaşması və inkişafı yaradılmış sistemlərin fəaliyyətinin təhlil olunmasını tələb edir. Son illərdə müxtəlif istiqamətləri və müxtəlif ixtisasları təmsil edən alimlər sosial müdafiənin və sosial xidmətin nəzəriyyə və praktikası, metodika və metodologiyası üzrə fəal araşdırmalar aparırlar. Azərbaycan iqtisad elmində sosial sahə, sosial müdafiə və sosial xidmət məsələləri Z.Ə.Səmədzadə, A.Ə.Əliyev, Ş.M.Muradov, Ə.Q.Əlirzayev, F.P.Rəhmanov, M.X.Meybullayev, V.T.Novruzov, A.Ş.Şəkərəliyev, A.N.Muradov və başqalarının əsərlərində təhlil edilmişdir.

Sosial müdafiə sisteminin təşkili, maliyyələşdirilməsi və idarə edilməsi məsələlərinin kompleks tədqiqatı rusiyalı mütəxəssislərdən A.M.Babiç, L.Q.Qriqoryev, N.S.Quslyakova, V.İ.Danakina, Y.V.Yeqorov, Y.N.Jiltsov, P.D.Jukov, S.V.Kadomtseva, M.A.Mojına, A.M. Panov, V.N.Smirnova-Yarskaya, A.C.Sorvina, J.B.Topçiy, M.V.Firsov, Y.İ.Xolostova, N.B. Şmelyova, Roik V.D., Rakitski B.V., Rimaşevskaya N.M., Sedova M.L., Slezinqer Q.E., Yakuşev L.P. və başqalarının işlərində əksini tapmışdır.

Digər tərəfdən, islahatdan əvvəlki dövrdə Azərbaycan iqtisad elmində sosial xidmətlərin formalaşması, inkişafı və bu xidmətlərin effektivliyinin artırılması məsələlərinin ayrı-ayrı, o cümlədən regional, yerli aspektləri kifayət qədər açıqlanmamışdı.

Müzakirə edilən problemlərin ayrı-ayrı mühüm cəhətləri heç də hə-

mişə hərtərəfli təhlil edilməmişdir. Bunun bir sıra səbəbləri var: əhalinin müxtəlif kateqoriyalarına və sosial təbəqələrinə sosial yardımın təşkilinin metodları və formaları nəzəri-metodoloji baxımdan lazımınca dərindən təhlil edilməyib, iqtisadi inkişafın hazırkı mərhələsində bu problemin həllinin normativ-hüquqi bazası mükəmməl deyildir və s.

Bundan başqa, yuxarıda sadalanan müəlliflər tərəfindən toxunulmuş problemlər son dərəcə mürəkkəb və çoxplanlıdır, müasir Azərbaycan şəraitində bu problemlər aydın ifadə olunmuş özünəməxsus xüsusiyyətlər kəsb edir, çünki onların bir sıra aspektləri əlavə tədqiqat və təhlil aparılmasını tələb edir.

**Dissertasiyanın məqsəd və vəzifələri.** Dissertasiyanın məqsədi sosial xidmət sferasının tənzimlənməsinin nəzəri əsaslarının və mövcud vəziyyətinin tədqiq edilərək qiymətləndirilməsi əsasında müasir şəraitdə Azərbaycanda sosial xidmət sferasının dövlət tərəfindən tənzimlənməsinin təkmilləşdirilməsinə dair elmi cəhətdən əsaslandırılmış əməli təkliflər hazırlamaqdan ibarətdir.

Dissertasiya tədqiqatının qeyd edilən məqsədinə müvafiq olaraq işdə aşağıdakı əsas vəzifələr qarşıya qoyulmuşdur:

-sosial xidmət sferasının tənzimlənməsinin mövcud nəzəriyyəsinin və onun müasir standartlara uyğunlaşdırılması sahəsindəki dünya təcrübəsinin konseptual əsaslarının ümumiləşdirilməsi;

- Azərbaycanda sosial xidmət sferasının inkişafının mövcud vəziyyətini qiymətləndirməyə və tənzimlənməsi xüsusiyyətlərini müəyyənləşdirməyə imkan verən sistemli təhlilin aparılması;

- ölkənin sosial xidmət sferasında səmərəliliyin təmin olunması istiqamətində əhalinin sosial müdafiə mexanizmlərinin təhlili;

- ölkədə sosial xidmətlərin inkişaf strategiyasının seçilməsi, sosial xidmətlər sahəsinin inkişafı Konsepsiyasının işlənib hazırlanması və onun reallaşdırılması istiqamətlərinin əsaslandırılması;

-Azərbaycan Respublikasında sosial xidmət sferasının inkişafı göstəricilərinin proqnozlaşdırılmasına təşkilati-metodik yanaşmalar işlənib hazırlanması.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obyekti sosial xidmət sferasıdır. Tədqiqatın predmetini isə sosial xidmətlərin tənzimlənməsi ilə bağlı iqtisadi münasibətlər təşkil edir .

**Tədqiqatın nəzəri və metodoloji əsasları.** Tədqiqatın nəzəri bazası iqtisadi nəzəriyyənin klassiklərinin əsərləri, Azərbaycanda və xarici ölkələrdə əhaliyə sosial xidmətin tənzimlənməsi sahəsində aparıcı alimlərin və praktiki mütəxəssislərin işləridir.

İşin metodoloji əsası tədqiqatın predmetinin xarakterinə, onun məq-

səd və vəzifələrinə uyğun olaraq müəyyən edilmişdir. İşdə sistemli və müqayisəli təhlil, baxılan hadisələrin keyfiyyət və kəmiyyət baxımından qiymətləndirilməsi, empirik məlumatların statistik işlənməsi metodları tətbiq edilmişdir.

İşdə həmçinin korrelyasiya və reqressiya təhlili, ekspert-analitik təhlil; modelləşdirmə, analogiya, sosioloji tədqiqat metodlarından istifadə edilmişdir.

**Tədqiqatın informasiya bazası.** Tədqiqatın nəticələrinin etibarlılığını təmin edən informasiya bazasına monoqrafik nəşrlərdə və dövri mətbuatda dərc edilmiş məlumatlar, rəsmi dövlət statistikasının materialları, Azərbaycan Respublikası Milli Məclisinin, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin sosial müdafiə və əhaliyə sosial xidmət sahəsində münasibətləri tənzimləyən qanunverici və normativ aktları, proqram, proqnoz, analitik və konseptual xarakterli materiallar; xarici dövlətlərin statistik, analitik, proqnoz və qanunverici materialları, Avropa İttifaqının sosial siyasət və sosial müdafiə məsələləri üzrə direktivləri, Beynəlxalq Əmək Təşkilatının (BƏT) konvensiya və tövsiyələri, Beynəlxalq Sosial Müdafiə Assosiasiyasının materialları, habelə müəllifin elmi-pedaqoji fəaliyyəti dövründə hazırladığı analitik materiallar daxildir.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyi ondan ibarətdir ki, respublikada sosial-iqtisadi islahatlar şəraitində sosial xidmətlər sahəsinin formalaşması və inkişafı haqqında sistemli təsəvvür verilmişdir.

İşdə sosial xidmət sferasının inkişafının aşağıda sadalanan metodoloji və konseptual müddəaları əsaslandırılmışdır:

• sosial xidmət müəssisələrinin fəaliyyətini, sosial xidmətin keyfiyyət və kəmiyyət cəhətlərini xarakterizə edən sosial indikatorların, normativlərin və standartların vasitəsi ilə sosial xidmət sferasının problemlərinin həllinə proqram yanaşmasının zəruriliyi əsaslandırılmışdır;

• respublikada sosial xidmətlər sisteminin modernləşdirilməsi və inkişaf etdirilməsi Konsepsiyası hazırlanmışdır;

• sosial xidmət sferasında səmərəliliyin təmin olunması məqsədilə müxtəlif yardım və müavinətlər nəzərə alınmaqla əhalinin sosial müdafiə sisteminin yaxşılaşdırılması ilə bağlı təklif və tövsiyyələr verilmişdir ;

• sosial xidmət sferasının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi modeli işlənib hazırlanmışdır;

• Azərbaycan Respublikasında sosial xidmət sferasının inkişafının proqnoz modelləri işlənib hazırlanmışdır;

• Azərbaycan Respublikasında sosial xidmət sferasının dövlət tərəfindən tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsinə dair

tövsiyələr işlənib hazırlanmışdır.

**Dissertasiya tədqiqatının nəzəri və praktik əhəmiyyəti.** Dissertasiya tədqiqatının nəzəri əhəmiyyəti sistemli və kompleks yanaşmadan istifadə edilməklə əhaliyə sosial xidmət sferasının tənzimlənməsi metodologiyasının daha da təkmilləşdirilməsindən ibarətdir.

Dissertasiya işinin nəzəri əhəmiyyəti həm də ondan ibarətdir ki, gələcəkdə onun nəticələrindən sosial siyasət, sosial müdafiə və əhaliyə sosial xidmət məsələlərinə aid nəzəri müddəaların işlənib hazırlanması üçün istifadə etmək mümkündür. Dissertasiyanın materialları müasir şəraitdə Azərbaycan Respublikasında baş verən sosial-iqtisadi transformasiya proseslərinin xüsusiyyətləri nəzərə alınmaqla əhaliyə sosial xidmət sferasının tənzimlənməsinin bütün səviyyələrində bu sferanın müasir problemlərinin xarakteri haqqında təsəvvür formalaşdırır.

Dissertasiya tədqiqatının nəticələrinin praktiki əhəmiyyəti bu nəticələrin ən əhəmiyyətli bir məsələnin həllinə - əhaliyə sosial xidmət sferasının tənzimlənməsinin təşkilati-iqtisadi baxımdan daha da təkmilləşdirilməsinə istiqamətlənməsi ilə müəyyən edilir. Dissertasiyada öz əksini tapmış müddəalar, nəticələr, informasiya-məlumat bazaları və praktiki təkliflər sosial sektora aid sahələrin sosial-iqtisadi inkişafının idarə edilməsi ilə məşğul olan mərkəzi, yerli və bələdiyyə səviyyəli təşkilati-hüquqi strukturlar tərəfindən sosial müdafiə tədbirlərinin, əhaliyə sosial dəstək üzrə dövlət proqramlarının və regional proqramların formalaşdırılması və reallaşdırılması vaxtı, həmçinin sığorta təşkilatları tərəfindən vətəndaşların sosial sığortasının sistemlərinin təşkili və idarə edilməsi məsələlərinin həllində istifadə edilə bilər.

**Tədqiqat nəticələrinin aprobasiyası.** İşdəki nəzəri və praktiki müddəalar sosial siyasət və sosial xidmət məsələlərinə dair keçirilmiş beynəlxalq, regionlararası, respublika səviyyəli konfrans və seminarlarda müzakirə olunmuş və bəyənilmişdir.

Dissertasiyanın materialları tədris proqramlarının və tədris-metodiki vəsaitlərin işlənib hazırlanmasında, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçiliyi Akademiyasında "Milli iqtisadiyyat", "İqtisadiyyatın dövlət tənzimlənməsi" fənləri üzrə kursların hazırlanması və tədrisi zamanı istifadə olunması üçün tovsiyə edilmişdir.

**Tədqiqat işinin nəticələri üzrə dərc olunmuş materiallar**. Dissertasiya işinin mövzusu üzrə 6 çap vərəqəi həcmində 3 tezis və 11 məqalə, o cümlədən xaricdə 1 tezis, 1 məqalə nəşr edilmişdir.

**Dissertasiyanın strukturu və həcmi.** Dissertasiya işi girişdən, 3 fəsildən, nəticədən, 190 adda ədəbiyyat siyahısından ibarət olmaqla 168 səhifədən və 2 əlavədən ibarətdir. Dissertasiyanın mətni daxilində 21 cədvəl, 20 şəkil və 1 qrafik verilmişdir.

## Dissertasiya işinin mündəricatı

**Giriş**
**I Fəsil. Sosial xidmət sferasının tənzimlənməsinin nəzəri-metodoloji əsasları**

1.1. Sosial xidmət – dövlətin sosial siyasətinin prioritet istiqamətidir.
1.2. Sosial xidmət resurslarının formalaşması və onlardan istifadənin konseptual əsasları
1.3. Xarici ölkələrdə sosial xidmət sferasının təşkili və tənzimlənməsi

**II Fəsil. Azərbaycanda sosial xidmətlər sferasının tənzimlənməsinin mövcud vəziyyətinin təhlili və qiymətləndirilməsi**
2.1. Azərbaycanda sosial xidmət sferasının inkişafının mövcud vəziyyətinin qiymətləndirilməsi
2.2. Sosial xidmətlər sferasının tənzimlənməsi xüsusiyyətləri
2.3. Ölkədə sosial xidmətlərin səmərəliliyinin təmin olunması istiqamətində əhalinin sosial müdafiə mexanizmlərinin təhlili

**III Fəsil. Azərbaycanda sosial xidmətlər sferasının tənzimlənməsinin təkmilləşdirilməsi istiqamətləri**
3.1. Sosial xidmət sferasının inkişaf strategiyasının işlənib hazırlanması
3.2. Sosial xidmət sferasının inkişaf göstəricilərinin proqnozlaşdırılması
3.3. Sosial xidmət sferasının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi

**Nəticə**
**İstifadə olunmuş ədəbiyyat**
**Əlavə**

# TƏDQİQATIN ƏSAS MƏZMUNU

**1.Dövlətin sosial siyasətinin prioritet istiqaməti kimi sosial xidmətin tədqiqi.** Sosial xidmət cəmiyyətin sosial sferasının altsistemi kimi, şəxsiyyətin, sosial qrupların və bütövlükdə cəmiyyətin inkişafına əhəmiyyətli təsir göstərir. Sosial xidmətin mahiyyəti cəmiyyətin və şəxsiyyətin təkrar istehsalı üçün onların vəhdətinin təmin olunmasında iştirak etməkdən ibarətdir, bu isə fərdin sosial subyektliyə nail olmasında və onda həyat fəaliyyəti keyfiyyətinin artırılmasına ehtiyacın formalaşmasında ifadə olunur. Bizim fikrimizcə, sosial müdafiə sosial xidmətin təzahürlərdən, onun tərkib hissələrindən biridir. Sistemli yanaşma baxımından, sosial xidmət – sosial sferanın və sosial müdafiə sisteminin bir hissəsidir. Hesab edirik ki, sosial xidmətdə fərd həm xidmətləri alan (obyekt) kimi, həm xidmətlərin mənbəyi (subyekti) kimi, həm də xidmətlərin məsuliyyətli istifadəçisi (həm obyekti, həm də subyekti) kimi çıxış edir.

Dissertasiyada dünya təcrübəsi ümumiləşdirilərək sosial xidmətin reallaşdırılması prinsipləri verilir (Şəkil 1).

Fikrimizcə, bu siyahıya müştərinin məsuliyyəti, öhdəlikləri və təşəbbüsü prinsipini də əlavə etmək lazımdır ki, müştərilər lazımlı informasiyanı vaxtında təqdim etsinlər və bu informasiyada baş vermiş dəyişikliklər haqqında vaxtında məlumat versinlər, qanunlara və qaydalara riayət etsinlər, sosial müəssisələrin işçilərinin əməyinə hörmət etsinlər.

Bu gün sosial xidmətlər aşağıdakı kimi təsnif edilir:

- növlər üzrə (maddi-məişət xidmətləri; qidalanmanın, məişətin, asudə vaxtın təşkili üzrə xidmətlər; sosial-tibbi və sosial-gigiyenik xidmətlər; əlillərin fiziki imkanları və əqli qabiliyyətləri nəzərə alınmaqla onların təhsil almasının təşkili; sosial-əmək reabilitasiyası və işədüzəlmədə köməklə bağlı xidmətlər; hüquqi xidmətlər; mərasim xidmətlərinin təşkilində kömək);

Beləliklə, sosial xidmətlər sistemi ölkənin sosial sisteminin əsas elementini təşkil edir, onun səmərəli fəaliyyəti həm sosial xidmətlərin bilavasitə istehlakçıları, həm də bütövlükdə ölkənin əhalisi üçün maraqlıdır. Sosial xidmət hüququnun, bu xidmətlərdən bəhrələnmək hüququnun və həmin hüquqları reallaşdırmaq imkanının mövcudluğu sayəsində sosial ədalət prinsipləri, cəmiyyətin üzvləri üçün bərabər imkanlar gerçəkləşir.

**Sosial xidmətin reallaşdırılma prinsipləri**

- ünvanlılıq
- əlyetərlilik
- sosial xidmətlər üçün müraciət etməyin könüllülüyü
- çətin həyat şəraitində olanlara sosial xidmətlərin
- sosial xidmət müştərilərinə münasibətdə humanizm;
- şəxsi ləyaqətə və şəxsi həyatın toxunulmazlığına hörmət
- sosial xidmətin müştərisi haqqında məlumatların məxfiliyi
- sosial xidmətlərin profilaktik yönümlülüyü
- müraciət etməyin ərizə xarakteri ilə bu xidmətlərə ehtiyac duyan vətəndaşların aşkar edilməsinin əlaqələndirilməsi
- xərclərdə iştirakının könüllülüyü
- vətəndaşların və sosial xidmətlərin qarşılıqlı fəaliyyəti
- sosial xidmətlərin fəaliyyətinin aşkarlığı

Şəkil 1. Sosial xidmətin reallaşdırılmasının əsas prinsipləri

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

**2. Sosial xidmət resurslarının formalaşması və onlardan istifadənin konseptual əsasları.** Sosial xidmət insanların müəyyən sosial-iqtisadi nemətlərə və xidmətlərə tələbatının təmin edilməsinə yönəldilmişdir. Bu nemətlər və xidmətlər də, öz növbəsində, cəmiyyətin və onun subyektlərinin sərəncamında olan resursların bütün növlərindən istifadə edilməklə istehsal olunur. Sosial xidmətlərin zəmanətlə təqdim edilməsi üzrə fəaliyyət, mahiyyət etibarilə məsrəflər tələb edən fəaliyyət olub, sabit resurs təminatı (maliyyə, maddi-texniki, kadr, texnologiya, informasiya təminatı) ilə bağlıdır (Şəkil 2).




Şəkil 2. Sosial xidmət sferasının resurs növləri

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Sosial xidmətin hədəflərinin reallaşdırılmasının obyektiv əsası olan resurs bazası, eyni zamanda, qarşıya qoyulmuş hədəflərə və vəzifələrə uyğun olaraq məqsədyönlü dəyişikliyə məruz qalır. Buna görə də sosial xidmətin hədəfləri və resursları ayrılmaz şəkildə bir-birinə bağlı olub, sosial-iqtisadi inkişafın proqnozlaşdırılmasının bütöv obyektini təşkil edirlər. Resurs bazası əhəmiyyətli dərəcədə sosial xidmətlər sisteminin son tələbatının təmin olunması üçün zəruri mallar istehsal etmək və müvafiq xidmətlər göstərmək qabiliyyətini müəyyən edir.

Biz hesab edirik ki, sosial xidmət sferasının resursları daha geniş anlayış olub, müxtəlif mənbələrdən daxil olan bütün maddi və qeyri-maddi vəsaitlərin məcmusunu əhatə edir. Sosial xidmətlərin, müəssisə və təşkilatların mütəxəssisləri iqtisadi subyektlər olaraq, öz fəaliyyətində bu resurslardan çətin həyat vəziyyətində olan müştərilərinin və (və ya) əhali qruplarının ehtiyaclarının təmin olunması və onlara sosial xidmətlər göstərilməsi üçün istifadə edə bilərlər və bu məsələnin həlli üçün tətbiq edirlər.

Bizim fikrimizcə, “Azərbaycan Respublikasının sosial xidmət haqqında” 30 dekabr 2011-ci il tarixli 275-IVQ №-li Qanunda sosial xidmət resurslarının bütün mənbələri nəzərə alınmır. Bu qanuna görə, sosial xidmətin resurs təminatı aşağıda sadalanan elementlərdən ibarətdir: sosial xidmətlərin əmlak təminatı; sosial xidmət müəssisələrinin maliyyə təminatı; sosial xidmət müəssisələrinin sahibkarlıq fəaliyyəti; sosial xidmətlərin kadr təminatı.

Araşdırmalar göstərir ki, sosial xidmətlər sisteminin istehsal və sosial strukturlarının rəqabətə davamlılığını, innovativliyini və kreativliyini təmin edən insanların sahibkarlıq qabiliyyətləri müasir şəraitdə mühüm resursdur. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, sosial xidmət müəssisələri sahibkarlıq fəaliyyəti ilə yalnız bu fəaliyyətin həmin müəssisələrin yaradılmasının məqsədlərinə nail olmağa xidmət etdiyi, bu hədəflərə uyğun olduğu və həmin müəssisələrin təsis sənədlərində təsbit edilmiş dərəcədə məşğul olmaq hüququna malikdirlər. Qeyri-kommersiya təşkilatlarının sahibkarlıq fəaliyyətinin əsasları Azərbaycan Respublikasının Mülki Məcəlləsində müəyyən edilmişdir. Sosial xidmət müəssisələrinin sahibkar fəaliyyətinə görə, Azərbaycan Respublikasının qanunvericiliyində müəyyən edilmiş qaydada güzəştli vergi tutulmalıdır. Sosial müəssisələrin sahibkarlıq fəaliyyəti bu gün əsasən pullu xidmətlər göstərilməsində və sponsor vəsaitlərinin, yerli və xarici hüquqi və fiziki şəxslərin təmənnasız ianələrinin cəlb olunmasında təzahür edir.

Yuxarıda adları çəkilən, ənənəvi iqtisad elmində qeyd edilən resurslar sırasına elm, bilik, təhsil, intellektual mülkiyyət, informasiya texnologiyaları, informasiya-kommunikasiya və energetika sistemləri və başqa yeni maddi və qeyri-maddi resurs növləri əlavə olunmuşdur. Sosial xidmətlər sistemində bilik, elm, elmi-texniki tərəqqi bugünkü və gələcək inkişafın əsas resurslarından birinə çevrilir. Sosial xidmətlərin intensiv inkişafı getdikcə daha artıq dərəcədə elmi-texniki nailiyyətlər, yeni texnologiyalar əsasında canlı əməyə qənaət hesabına təmin olunmalıdır.

Resurs potensialının inkişafı və ondan istifadə məsələsi resursların mobilliyi, bir-birini qarşılıqlı tamamlaması və qarşılıqlı əvəz etməsi, məhdudluq kimi xüsusiyyətləri ilə təyin edilir. İstehsal resurslarının bu və ya digər növlərinin məhdudluğu, defisiti daimi inkişaf və dəyişikliklər rejimində olan iqtisadi sistemin – sosial xidmətlər sisteminin səciyyəvi xüsusiyyətidir. İstər bütövlükdə cəmiyyətin, istərsə də vətəndaşların ayrı-ayrı kateqoriyalarının sosial ehtiyacları daim artır və dəyişir.

Beləliklə, resurslar sosial xidmətlər sistemində, fəaliyyət sferasından və mülkiyyət formasından asılı olmayaraq istənilən müəssisənin və təşkilatın fəaliyyətində mühüm rol oynayır. Sosial müəssisələrin spesifik funksiyalarından asılı olaraq sosial xidmət resurslarının strukturu, onların

kəmiyyət və keyfiyyət xüsusiyyətləri də müxtəlifdir. Resursların istifadəsinin əsası - sosial müəssisə və təşkilatların bütün fəaliyyətinin hədəfləri, vəzifələri, dəyərləri, imkanları və mənbələri ilə müəyyən edilir. Sosial xidmət müəssisələrinin bütün resursları öz aralarında qarşılıqlı əlaqəlidir, buna görə həmin müəssisələrin effektiv fəaliyyəti yalnız resursların bütün növlərinin əlaqələndirilməsi və onlardan səmərəli istifadə edilməsi halında mümkündür.

**3. Sosial xidmət sferasının tənzimlənməsi sahəsində beynəlxalq təcrübənin ümumiləşdirilməsi.** Ölkəmizdə sosial xidmət sisteminin keçid vəziyyətində olması ayrı-ayrı ölkələrin sosial-iqtisadi inkişafı təcrübəsində ən uğurlu və effektiv nümunələrdən istifadə etmək üçün əlverişli imkanlar yaradır. Ona görə də biz belə hesab edirik ki, əhaliyə sosial xidmət, sosial müdafiə və sosial yardım sisteminin formalaşması, təşkili və fəaliyyəti sahəsində Avropa ölkələrinin, ABŞ, Türkiyə və başqa dövlətlərin təcrübəsinin tədqiq edilməsi müasir Azərbaycan üçün çox aktualdır. Məsələyə bu cür münasibət, bir tərəfdən, həmin dövlətlərdə uzun müddət ərzində toplanmış təcrübənin müsbət elementlərini nəzərə almağa, sosial xidmətə müxtəlif yanaşmalardan və müvafiq modellərdən bəhrələnməyə imkan verir, digər tərəfdən, Azərbaycanın, Türkiyənin və Rusiyanın ortaq tarixi, sosial və mədəni kökləri ilə bağlıdır.

Dissertasiyada sosial xidmət sahəsində xarici ölkələrin mövcud təcrübəsi nəzərdən keçirilərkən, bu təcrübənin çox cəhətdən hər bir dövlətin formalaşdırdığı sosial siyasət modeli ilə təyin edildiyi qənaətinə gəlinir və qeyd olunur ki, heç yerdə təmiz halda rast gəlinməyən bu modellər, çox ehtimal ki, qarışıq xarakter daşıyır və transformasiya prosesindədirlər. Buna baxmayaraq, bizim tərəfimizdən müxtəlif ölkələrdə sosial xidmətə mövcud yanaşmaları təhlil etmək üçün sosial-demokratik (Skandinaviya ölkələri), mühafizəkar (Avropa ölkələrinin əksəriyyəti), liberal (Böyük Britaniya, ABŞ) modelləri araşdırılmışdır. Araşdırmalar nəticəsində müəyyən edilmişdir ki, fərdiyyətçilik ənənələrinin və onların antipodu olan əməkdaşlıq ənənələrinin təsiri ilə ABŞ-da və İsveçdə müxtəlif sosial rifah sistemləri yaranmışdır. Ailəcanlılıq ənənələri və ailəvi-qohumluq əlaqələri sosial rifah sistemlərinin əksəriyyətində mövcuddur, amma bəzi dövlətlərdə, xüsusilə inkişaf etməkdə olan ölkələrdə (İran, Çin, Hindistan) sosial dəstəyin təşkilində bu ənənələr və əlaqələr müəyyənedici rol oynayır. Sənaye cəhətdən inkişaf etmiş Qərb ölkələrində yaşlı insanlara özəl stasionarlarda, sanatoriyalarda sosial kömək və evdə fərdi xidmət çox geniş yayılmışdır, Asiya ölkələrində isə bu, hələlik çətin ki, mümkün olsun, çünki həmin ölkələrdə yaranmış ənənələrə görə, qohumluq əlaqələri sistemində yaşlı insanlar yüksək nüfuza malikdirlər və onlara qayğı

göstərilməsi – kənar insanların yox, yalnız ailənin işidir.

Dissertasiyada Fransanın nümunəsində Avropa (mühafizəkar) sosial yardım sistemi və ABŞ-ın nümunəsində Amerika (liberal) sosial yardım sistemi nəzərdən keçirilmişdir. Fransa sosial xidmət sistemi potensial olaraq əhalinin kifayət qədər geniş təbəqələrini əhatə edir, çünki o ölkədə daimi yaşayan bütün şəxslərə, onların vətəndaşlığından asılı olmayaraq, şamil edilir. ABŞ-da isə sosial xidmət sistemi prinsipial olaraq başqa cür qurulur. Dövlət tərəfindən göstərilən sosial yardım büdcə hesabına deyil, qabaqcadan ödənilmiş sığorta haqları hesabına maliyyələşdirilir. ABŞ-da sosial xidmət sahəsində ən müsbət xüsusiyyətlərdən bir sosial marketlərin və sosial yeməkxanaların olmasıdır. Vətəndaşlar aidiyatı orqanlara sosial yardımlarla bağlı mürciət etdikdə ilk öncə onların hansı ehtiyclarının olduğu müəyyənləşdirilir. Bundan sonra isə müraciət edən şəxsə kupon verilir ki, bu kuponla həmin şəxs müəyyən edilmiş məbləğ çərçivəsində həmin sosial marketlərdən ərzaq malları və zəruri ehtiyaclarını qarşılayacaq digər mallar ala bilir. Fikimizcə sosial market və sosial yeməkxana praktikası ölkəmizdə tətbiq olunarsa bu çox müsbət bir hal ola bilər.

Hesab edirik ki, Türkiyədə sosial xidmət sahəsində fəaliyyət göstərən təşkilatlar sırasında bələdiyyə təşkilatlarının rolunun yüksək olması, müsbət bir amildir. Bu göstəricilər, inkişaf etmiş Avropa ölkələrinin göstəriciləriylə demək olar ki eynidir. Türkiyədə sosial xidmətin mövcud olan müsbət xüsusiyyətlərini qeyd edərək, belə qənaətə gəlirik ki, Türkiyə ilə bizim ölkəmiz hər sahədə, milli mentalitet, din, dil və s. çox yaxındır. Bunu nəzərə alaraq demək olar ki, Türkiyədə mövcud olan sosial xidmət təcrübəsini ölkəmizdə asanlıqla tətbiq etmək olar. Bu ölkənin sosial xidmətinin əsas müsbət xüsusiyyətləri ondan ibarətdir ki, bələdiyyə, özəl qurumlar, qeyri-dövlət təşkilatları və dövlət təşkilatları birlikdə bir sistem halında fəaliyyət göstərir. Demək olar ki, cəmiyyətin bütün təbəqələrindən olan insanlara xidmət göstərə bilirlər.

### 4. Azərbaycanda sosial xidmət sferasının inkişafının mövcud vəziyyətinin qiymətləndirilməsi.

Araşdırmalar göstərir ki, 2001-ci ilin əvvəlinə internat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı 2484 nəfər olmuşdursa, 2016-cı ilin əvvəlinə bu göstərici 4,1 dəfə azalaraq 602-yə, müvafiq surətdə həmin dövrdə uşaq evlərində olanların sayı 6 dəfədən çox azalaraq 23-ə, sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində olanların sayı 3,4 dəfədən çox azalaraq 82-yə, əqli cəhətdən geri qalan uşaqlar üçün internat evlərində olanların sayı 5,2 dəfə azalaraq 39-a, ümumi tipli internat məktəblərində olanların sayı 3,8 dəfə azalaraq 458-ə çatmışdır (Cədvəl 1).

"Azərbaycan Respublikasında dövlət uşaq müəssisələrindən uşaqların ailələrə verilməsi (De-insititu-sionalizasiya) və alternativ qayğı Dövlət Proqramı (2006-2015-ci illər)" çərçivəsində övladlığa götürülənlər və övladlığa götürmənin ləğvi üzrə 2005-2015-ci illər ərzində vəziyyətin təhlili müəyyən yaş dövrləri üzrə aparılmışdır (Cədvəl 2).

Cədvəl 1

**İnternat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı (ilin əvvəlinə, nəfər)**

| İllər üzrə | 2001 | 2006 | 2013 | 2016 |
|---|---|---|---|---|
| İnternat müəssisələrində valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqların sayı | 2484 | 2441 | 757 | 602 |
| körpələr evlərində | 107 | 59 | 1 | - |
| uşaq evlərində | 139 | 438 | 26 | 23 |
| sağlamlıq imkanları məhdud uşaqlar üçün xüsusi internat məktəblərində | 280 | 280 | 115 | 82 |
| əqli cəhətdən geri qalan uşaqlar üçün internat evlərində | 203 | 61 | 72 | 39 |
| ümumi tipli internat məktəblərində | 1755 | 1603 | 543 | 458 |
| onlardan valideynini itirmiş və valideyn himayəsindən məhrum olan uşaqlar üçün internat məktəblərində | 368 | 330 | 414 | 401 |

*Mənbə: Azərbaycanda uşaqlar 2016. Statistik məcmuə. Bakı, 2016, s.80.*

Cədvəldən görüldüyü kimi, övladlığa götürülən uşaqların əsas hissəsini 1-5 yaş arası uşaqlar təşkil etməkdədir. İkinci yerdə 6-10 yaş arası olan uşaqlar gəlir. 1 yaşadək və 6-10 yaş uşaqların övladlığa götürmə sayı təxminən eynidir. Proqramın icrası zamanı övladlığa götürmə ilə yanaşı övladlığa götürmənin ləğvinə də rast gəlinir. Burda isə əsas yeri 11-17 yaş arası uşaqlar tutmaqdadır ki, bunu da əsasən onların nisbətən böyük olduqları üçün ailələrə gec uyğunlaşmasıyla əlaqələndirirlər. Bir yaşadək olan uşaqlarda bu hal demək olar ki, yox səviyyəsindədir.

Təhlil göstərir ki, ünvanlı dövlət sosial yardımı təyin olunmuş ailələrin sayı 2016-cı ilin əvvəlinə 2011-ci ilin əvvəli ilə müqaisədə 14,5 faiz azalaraq 105009 nəfər təşkil etmişdir. Ünvanlı dövlət sosial yardımı alan ailə üzvlərinin sayı isə müvafiq şəkildə 31,3 faiz azalaraq 451538

nəfər, onlardan ünvanlı dövlət sosial yardımı təyin olunmuş uşaqların sayı 17,4 faiz azalaraq 226434 nəfər təşkil etmişdir. Təhlil olunan dövrdə bir nəfərə düşən orta aylıq ünvanlı dövlət sosial yardımının məbləği 11,37 manat artaraq 2016-cı ilin əvvəlinə 35,49 manata bərabər olmuşdur.

Cədvəl 2

**Övladlığa götürmə və övladlığa götürmənin ləğvi**

| Göstəricilər | 2005 | 2010 | 2011 | 2012 | 2013 | 2014 | 2015 | 2015-ci il 2010-cu ilə nisb. %-lə |
|---|---|---|---|---|---|---|---|---|
| Övladlığa götürülən uşaqlar | 803 | 798 | 934 | 989 | 961 | 918 | 805 | 100,9 |
| 1 yaşadək | 134 | 204 | 181 | 226 | 204 | 205 | 166 | 81,4 |
| 1-5 yaşadək | 324 | 330 | 454 | 438 | 429 | 360 | 360 | 109,1 |
| 6-10 yaşadək | 198 | 148 | 162 | 195 | 183 | 203 | 176 | 118,9 |
| 11-17 yaşadək | 147 | 116 | 137 | 130 | 145 | 150 | 203 | 175,0 |
| Övladlığa götürülməsi ilə bağlı qərarları ləğv edilmiş | 56 | 59 | 61 | 53 | 60 | 69 | 66 | 111,9 |
| 1 yaşadək | 1 | 3 | - | - | 1 | 1 | 5 | 166,7 |
| 1-5 yaşadək | 9 | 3 | 10 | 4 | 6 | 11 | 10 | 333,3 |
| 6-10 yaşadək | 5 | 4 | 6 | 7 | 7 | 8 | 15 | 375,0 |
| 11-17 yaşadək | 41 | 49 | 45 | 42 | 46 | 49 | 36 | 87,8 |

*Mənbə: Azərbaycanda uşaqlar 2016. Statistik məcmuə. Bakı, 2016, s.81.*

Azərbaycanda pensiya və müavinət alan əlillərin sayı 2016-cı ilin əvvəlinə 587,2 min nəfər təşkil etmişdir ki, bu da 2000-ci ilin əvvəli ilə müqayisədə 2,3dəfə çoxdur .

Dissertasiyada aparılan təhlilindən aydın olur ki, pensiya və müavinət alan əlillər arasında sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqların sayı təhlil edilən dövrdə 3,1 dəfə artaraq, 2016-cı ilin əvvəlinə 67,1 min nəfərə bərabər olmuşdur. Nəticədə pensiya və müavinət alan əlillər arasında sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqların xüsusi çəkisi 2000-ci ilin əvvəlinə 8,7 faiz təşkil edirdisə, 2016-cı ilin əvvəlinə bu göstərici 2,7 faiz bəndi artaraq, 11,4 % çatmışdır.

Cəmiyyətdə rast gəlinən sosial problemlərin həlliylə Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə yanaşı, Heydər Əliyev Fondu, bir sıra qadın təşkilatları, beynəlxalq və qeyri-hökumət təşkilatları və ictimai birliklər məşğul olmaqdadır.

Beləliklə, Azərbaycan Respublikası əhalisinə sosial xidmətlərin

kompleks sistemi formalaşmışdır. Bu sistemin optimallaşdırılması, effektiv fəaliyyəti və daha da inkişaf etdirilməsi üzrə tədbirlərin işlənib hazırlanması və həyata keçirilməsi ilə bağlı işlər davam edir.

**5. Sosial xidmət sferasının tənzimlənməsi xüsusiyyətlərinin tədqiqi**. Sosial xidmət sferasında məqsədyönlü və səmərəli dövlət siyasətinin aparılması üçün bu sferaya uyğun keyfiyyətli və mükəmməl qanunvericilik-hüquqi baza yaradılmalı, onun zəruri mövcudluq şərtlərini müəyyən edən etibarlı və müasir maliyyələşmə mənbələri təmin olunmalıdır.

Dövlət, cəmiyyətin idarəolunmasını həyata keçirir. Vahid bir subyekt kimi sosial həyatın qanunvericiliklə tənzimlənməsi hüququ məhz dövlətə məxsusdur. Sosial xidmət sahəsinə dair Azərbaycan Respublikası qanunvericiliyində dövlət siyasətinin mahiyyəti məhz bununla müəyyənləşdirilir.

Azərbaycan qanunvericiliyi sosial xidmət sahəsində dövlətin vəzifələrinin geniş spektrini təsbit edir (Şəkil 3).




Şəkil 3. Sosial xidmət sahəsində Azərbaycan dövlətinin vəzifələri

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Azərbaycan Respublikası müstəqillik qazandıqdan sonra sosial xidmətin əhatə dairəsinin genişləndirilməsi və keyfiyyətinin yüksəldilməsi məqsədilə bir sıra qanunlar qəbul olundu. Həmin qanunların qəbulundan sonra ölkədə sosial xidmətin formalaşması üçün təşkilati-hüquqi zəmin yarandı.

Sosial xidmətin inkişafı və bu sahədə keyfiyyətcə yeni bir mərhələnin başlanması 2011-ci il 30 dekabr tarixində "Sosi-al xidmət haqqında" Azərbaycan Respublikası Qanununun qəbulu nəticəsində mümkün oldu. Qanunda ölkə üzrə həyata keçirilən sosial xidmətlərə dövlətin vahid yanaşması, sosial xidmət sahəsində dövlət siyasətinin əsas prinsipləri, sosial xidmətlərin məqsədi, forma və növləri, şəxsin sosial xidmətə götürülməsi və ona sosial xidmət göstərilməsi üçün mühüm təsisat olan sosial işçinin statusu, hüquq və vəzifələri təsbit olunur, sosial xidmətin maliyyələşdirilməsi və sosial xidmət haqları müəyyənləşdirilmişdir.

Bununla belə, sosial xidmət sferasının bir çox sektorlarının müasir qanunvericiliyə ehtiyacı var. O cümlədən, bizim fikrimizcə, bu sahədə hələ xeyli iş görülməlidir.

Əhaliyə sosial xidmətin hüquqi tənzimlənməsi sisteminin vacib komponenti – sosial xidmət sahələrinin inkişafına dair dövlət proqramlarıdır. Bu proqramların məqsədi – sosial xidmət müəssisələrinin optimal infrastrukturunun yaradılması, aktuallığını itirmiş xidmət növlərinin ləğv edilməsi, konkret sosial nəticəyə istiqamətlənmiş innovativ sosial texnologiyaların tətbiq olunmasıdır.

Dissertasiyada Azərbaycan Respublikası Prezidentinin 2012-ci il 29 dekabr tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan 2020: Gələcəyə Baxış" İnkişaf Konsepsiyası sosial xidmət sahəsində xüsusi əhəmiyyətə malik hüquqi sənəd kimi şərh edilir.

Bununla belə, böyük nailiyyətlərə baxmayaraq, sosial xidmət haqqında milli qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac var. Hal-hazırda, hələ ki, dövlətin hüquqi normalarda nəzərdə tutulmuş sosial xidmət təminatına dair öhdəlikləri ilə, bu öhdəliklərin reallaşdırılması arasında ziddiyyətlər mövcuddur, və bu ziddiyyətlər sosial xidmət sistemi müəssisələrinin inkişafına və onların fəaliyyətinin keyfiyyətinin obyektiv qiymətləndirilməsinə maneçilik törədir. Bundan başqa, qəbul edilmiş qanunlar, hələ ki, bir faktı nəzərə almırlar: sosial xidmət istifadəçisi olan vətəndaş, sosial xidmət obyekti olmaqla yanaşı, həm də sosial xidmət subyekti olmalıdır, çünki, o özü, öz problemlərinin həllində fəal iştirak etməlidir.

İqtisadi inkişafın hazırkı mərhələsində Azərbaycan Respublikası ƏƏSMN-nin rayon (şəhər) Əhalinin sosial müdafiəsi mərkəzlərində

(ƏSMM-lərində) Sosial məişət xidməti seкtorları ancaq tənha ahıl şəxslərə xidmətlər göstərir və bu aspektdə sosial xidmətçilər səyyar sosial xidmətlər təqdim edirlər. İlкin sosial xidmətlərə əhalinin digər həssas кateqoriyalarının əlçatanlığını təmin etmək və vətəndaşların sosial xidmətlərdən geniş şəкildə faydalanmaları üçün bu mərкəzlərdə "Sosial xidmət haqqında" Qanuna, "Azərbaycan-2020: gələcəyə baxış" İnкişaf Konsepsiyasına, Avropa Şurası çərçivəsində qəbul edilmiş Avropa Sosial Xartiyasına və beynəlxalq təcrübəyə əsaslanan yeni modelin yaradılmasına zərurət yaranmışdır.

Bununla əlaqədar olaraq sosial xidmətin inкişafı məqsədilə rayon (şəhər) ƏSMM-lərində "sosial işçi" modelini tətbiq etmək tövsiyə edilmişdir. Modelin məzmununa uyğun olaraq, sosial müdafiəyə ehtiyacı olan şəxslərə sosial işçilər tərəfindən ilкin sosial xidmətlər göstərilməкlə problemlərin həlli istiqamətində dəqiq qərar qəbul olunması, onların sosial xidmətlərə əlçatanlığın təmin edilməsi, cəmiyyətə inteqrasiyasının bərpa olunması, eləcə də sosial və psixoloji ehtiyaclarının müəyyənləşdirilməsi, həmin xidmətlərin respubliкanın bütün bölgələrini əhatə etməsi nəzərdə tutulmuşdur.

Məişət xidməti seкtorlarının inzibati vəzifə tutan işçilərinin "Sosial işçi" modelinə uyğunluğu təhlil olunarkən mövcud кadr potensialından istifadənin səmərəliliyi qiymətləndirilmişdir. Mövcud insan resurslarının ixtisaslar üzrə aparılan təhlili nəticəsində sosial işçi modelinə uyğun gələn ixtisaslar (pedaqoji, sosial elmlər və hüquq ixtisasları) 70 faiz təşкil etmişdir. Eyni zamanda, göstərmək lazımdır ki, sosial məişət xidməti seкtorlarında fəaliyyət göstərən кadrların 65 faizi  artıq on ildir кi, bu sahədə ixtisaslaşmışdır.

Aparılan araşdırmalar nəticəsində sözügedən xidmət seкtorlarında inzibati vəzifə daşıyan işçilərin "Sosial işçi" кimi transformasiya edilməsinin bir sıra üstünlüкləri aşкara çıxarılmışdır. Müəyyən edilmişdir ki, onların sosial işçi кimi fəaliyyət göstərməsinə zəmin yaradan üstün cəhətlər əsasən aşağıdakılardan ibarətdir: həmin işçilərin müvafiq sahədə tam və ya qismən (65 %) təcrübələri; aidiyyəti təhsilə malik olmaları (pedaqoji, hüquq, sosial elmlər istiqamətləri üzrə 70 %); müvafiq rayon (şəhər) üzrə əhalinin sosial durumu barədə məlumatlılığı; bölgələrə xas olan xüsusiyyətlər haqqında bilgiləri; müvafiq rayon (şəhər) üzrə yerli icra haкimiyyəti, eləcə də digər dövlət qurumlarının yerli nümayəndəliкləri ilə əlaqələrinin olması. Bundan əlavə, izafi xərclərin minimum həddə olması, mövcud əməк haqqı çərçivəsində funкsionallığın təmin edilməsi və yerli əhalinin işlə təmin olunması baxımından həmin işçilərin aidiyyəti rayon üzrə seçilməsini məqsədəuyğun saymaq olar. Avropa Ittifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respubliкasının ƏƏSMN və Avstriya Respubliкasının aidiyyəti qurumları ilə birgə "Sosial xidmətin inкişafı" adlı Tvinninq Layihəsinin icrasına

başlanılması da ölkəmizdə sosial işin beynəlxalq və mütərəqqi standartlara uyğun modelinin tətbiq edilməsi məqsədi daşıdığını göstərir.

Bunun üçün əvvəlcə, Gəncə şəhəri, Lənkəran, Bakı şəhərinin Xəzər rayonu və Xaçmaz rayonlarından ibarət 4 pilot ərazi seçilmiş və bu ərazilərin əməkdaşlarına sosial xidmət sisteminin təkmilləşdirilməsi üzrə mütərəqqi dünya təcrübəsinin öyrədilməsi, onların öz iş sahələrində nəzəri və təcrübi biliklərinin artırılması istiqamətində "Sosial işin təşkili" mövzusunda mütəmadi təlimlər keçirilmişdir.

Apardığımız araşdırmalar göstərir ki, ƏSMM-lərində tətbiq ediləcək "sosial işçi" modeli Azərbaycanda sosial xidmətin inkişafı istiqamətində mühüm addım olacaqdır. Ona görə ki, bütövlükdə həssas əhali qruplarına ediləcək xidmətlər, bir tərəfdən, sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin yüksəlməsinə, digər tərəfdən, şəxslərin xidmətlərə əlçatan-lığının və cəmiyyətə adaptasiyasının təmin olunmasına şərait yaradacaqdır. Bunun nəticəsində əhalinin rifah halı yaxşılaşacaq və sosial səmərəlilik prinsipləri gerçəkləşdiriləcəkdir. Bütün bunlarla əlaqədar olaraq indiki dövrün tələblərinə və beynəlxalq təcrübəyə uyğun sosial tədbirlərin həyata keçirilməsi bütövlükdə respublikanın sosial müdafiə sisteminin təkmilləşdirilməsi ilə yanaşı, bu sahədə sosial siyasətin daha da stimullaşdırılması üçün mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikası ƏƏSMN tərəfindən 2016-cı ilin əvvəlinə aylıq sosial müavinətlə təmin olunanların sayı 354 min nəfərə yaxındır. Onlardan 66,5 min nəfəri sağlamlıq imkanları məhdud uşaq olduğuna görə, 41,7 min nəfəri ailə başçısını itirməyə görə, 14,4 min nəfəri yaşa görə, 140,9 min nəfəri əlilliyə görə aylıq sosial müavinət alır. Ölkədə həmçinin 49 min nəfər müharibə veteranı, müharibə əlillərinin və şəhid ailələrinin, I və II qrup Çernobıl AES əlillərinin və müddətli hərbi xidmət qulluqçularının uşaqlarından ibarət 18,3 min nəfərə aylıq sosial müavinət verilir. Bundan əlavə, aztəminatlı ailələrdəki bir yaşadək uşaqlar (5,8 min nəfər), beşdən çox uşağı olan qadınların 18 yaşına çatmamış uşaqları (8,9 min nəfər) və digər müvafiq kateqoriyalardan olan insanlar da ayıq sosial müavinət ödənilənlərin sırasına daxildir.

Ölkə Prezidentinin 19 yanvar 2016-cı il tarixli "Sosial müavinətlərin məbləğinin artırılması haqqında" Fərmanı ilə sosial müavinətlərin məbləği 01.02.2016-cı il tarixindən etibarən növbəti dəfə artırılmışdır.

Sosial təminat sistemində şəffaflığın artırılması məqsədilə sosial müavinət və təqaüd, eləcə də ünvanlı dövlət sosial yardımı alanların siyahısı ƏƏSMN-in rəsmi internet saytında (www.mlspp.gov.az) yerləşdirilmişdir və hazırda qeyd edilən sosial ödənişlər plastik kartlarla bankomatlar vasitəsilə yerinə yetirilir.

Azərbaycanda əhalinin sosial baxımdan həssas qruplarının hüquqlarının etibarlı müdafiəsi, onların dolğun həyat şəraitinin təmin edilməsi, maddi və mənəvi tələbatlarının ödənilməsi istiqamətində reallaşdırılan tədbirlərin əhatə dairəsi getdikcə genişlənir. Həmin təbəqədən olan şəxslərlə bağlı aparılan siyasətin əsas məqsədi cəmiyyətin digər üzvləri кimi bu insanların da cəmiyyətə tam inteqrasiya olunmalarının, bərabərhüquqlu və dolğun həyat şəraitinə maliк olmalarının təmin edilməsidir.

Ölкənin sosial müdafiə sisteminin vacib elementlərindən danışarкən, ilk növbədə, cəmiyyətin qayğıya və yardıma daha çox ehtiyacı olan üzvləri кimi aşağıdaкı кateqoriyalar üzrə şəxslərin sosial müdafiəsi sahəsindəкi problemlərin aradan qaldırılması və onların cəmiyyətə inteqrasiyasının təmin edilməsi xüsusi önəm təşkil edir(Şəkil 4):




Şəkil 4. Azərbaycanda əhalinin sosial baxımdan həssas qruplarının cəmiyyətə inteqrasiyasının təmin edilməsi istiqamətləri

Yuxarıda qeyd olunan həssas əhali qruplarının sosial hüquqlarının müdafiəsi, o cümlədən sosial xidmətlərlə təmin olunması məsələləri həm Azərbaycan Respubliкasının qoşulduğu müvafiq beynəlxalq sənədlərdə, həm də milli qanunvericiliкdə mühüm bir vəzifə кimi qarşıya qoyulmuşdur. Həmin vəzifələrin həyata keçirilməsi məqsədilə ölкənin sosial xid-

mətlər sferasında qanunvericiliк bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, sosial xidmət sisteminin təкmilləşdirilməsi, bu sahədə həssas əhali qruplarının maraqlarına maкsimum cavab verən alternativ sosial xidmətlərin yaradılması istiqamətində xeyli işlər görülmüş və bu işlər hazırda da davam etdirilir.

Ölkə əhalisinə göstərilən sosial xidmətlərin кəmiyyət və кeyfiyyətinin artırılması məqsədilə 2016-cı ildə UNICEF-in texniкi dəstəyi ilə minimum standartların, monitorinq və qiymətləndirmə meyarlarının hazırlanmasına başlanılmışdır.

Avropa Ittifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respubliкası Əməк və Əhalinin Sosial Müdafiəsi Nazirliyi və Vyana şəhəri Işçi Nümayəndəliyi tərəfindən birgə iкiilliк (01 iyun 2015 - 31 may 2017) “Sosial xidmət təminatının inкişafı” Tvinninq layihəsinin həyata кeçirilməsində məqsəd çətin həyat şəraitində olan şəxslərin sosial inteqrasiyasının təmin edilməsindən, müvafiq sahədə qanunvericiliyin və institusional mexanizmlərin təкmilləşdirilməsindən və кeyfiyyətli sosial xidmətlərin təminatı üçün zəruri şəraitin yaradılmasından ibarətdir.

Getdikcə qloballaşan dünyanın müxtəlif ölкələrində geniş müzaкirə edilən sosial inteqrasiya məsələlərinin həllində müxtəlif yanaşmalar olsa da, ümumi yanaşma belədir кi, hər bir dövlət öz ölкəsinin əhalisi üçün hər bir fərdin həm cəmiyyətin sosial həyatına fəal şəкildə qoşulmasına, həm də mövcud ictimai norma və dəyərləri rahat qavraya bilməsinə imkan verən şərait formalaşdırmağa çalışmalıdır. Azərbaycan Respubliкasında həyata кeçirilən siyasət, məhz bu şəraiti forma və məzmunu etibarilə təmin etməк istiqamətində sosial inteqrasiyanı bərqərar etməyə yönəldilmişdir.

**6. Sosial xidmət sferasının inkişaf strategiyasının işlənib hazırlanması.** Ölkənin proqram sənədlərində sosial xidmət sahəsində irəli sürülən oriyentirlər daha da konkretləşdirilməlidirlər. Hal-hazırda sosial xidmət problemlərinin həllinə, respublikanın ictimai inkişafının xarakterində baş verən müsbət dəyişikliklərdən, sosial-iqtisadi vəziyyətin ən yaxın perspektivlərindən irəli gələn yeni proyeksiya məqsədəuyğundur. Fikrimizcə, bu məqsədə xidmət edə biləcək Azərbaycanın sosial xidmət sferasının inkişaf Konsepsiyasının işlənib hazırlanması məqsədəuyğundur. Bu Konsepsiyaya görə Azərbaycanın sosial xidmət sferasının İnkişaf Konsepsiyasının təklif edilən strukturu 5-ci şəkildə verilmişdir.

Sosial xidmətin İnkişaf Konsepsiyası müasir şəraitdə bu sferada dövlət siyasəti barədə ümumi, konseptual təsəvvürləri ifadə edir. O, sosial xidmət sisteminin inkişafı istiqamətlərini müəyyən edir.




Şəkil 5. Azərbaycanın sosial xidmət sferasının İnkişaf Konsepsiyasının təklif edilən strukturu
*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Bu dövlət-ictimai sənədinə Azərbaycanın ayrı-ayrı qanunvericilik aktlarında verilmiş müddəalar kompleksi, həmçinin, respublika qarşısında sosial xidmət sahəsində duran ən vacib problemlərin həllinə həsr olunmuş uzunmüddətli dövlət proqramlarının təməlini təşkil edə bilən müddəalar daxil edilmişdir. Sosial xidmət sferasının inkişaf Konsepsiyası, öz əksini müxtəlif normativ-hüquqi sənədlərdə tapan konkret məzmuna malikdir. Buna görə də, tədqiqat işində ilk növbədə, onun fəaliyyət sahəsi, tənzimlənmə və islahat obyektləri çərçivələri müəyyən edilmişdir (şəkil 7).

Sosial xidmət sferasının İnkişaf Konsepsiyası yuxarıda aşkara çıxarılmış əsas problemlərin və ziddiyyətlərin qiymətləndirilməsindən çıxış edərək, bu sahədə siyasətin meyar və prinsiplərinə istinad edir. Bununla bağlı, fikrimizcə, mövcud dövlət proqramlarının dəqiqləşdirilməsinə ehtiyac var. Bunun nəticəsində, sosial xidmət sahəsində konkret prioritetlər müəyyənləşdirilməlidir. Proqramlar daha dinamik olmalı, onların reallaşdırılmasının səmərəliliyinin hər il qiymətləndirilməsi və sosial xidmət sahəsində konkret nəticələrin əldə olunması dərəcəsi nəzərə alınmalıdır. Onlar, sosial xidmət sahəsinə dair müvafiq düzəlişlərin aparılması imkanlarına malik olmalıdırlar.

Beləliklə, sosisl xidmətin dövlət tənzimlənməsinin mütərəqqi sisteminin təkmilləşdirilməsi bir neçə istiqamətdə getməlidir. Bu, ilk

növbədə, sosial gərginliyin artmasının yol verilməməsi nəzərə alınmaqla, yaxın gələcəkdə bu sferanın inkişafının əsas prioritetlərinin müəyyənləşdirilməsidir.




Şəkil 7. Sosial xidmət sferasının İnkişaf Konsepsiyası modulları çərçivəsində göstərilən əsas problemləri

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

**7. Sosial xidmət sferasının inkişaf göstəricilərinin proqnozlaşdırılması.** Respublikanın sosial xidmət sferasının inkişaf perspektivləri bu sfera göstəricilərinin proqnoz hesablamaları əsasında müəyyənləşdirilmişdir. Dissertasiyada bu sferanın inkişaf göstəricilərinin 2025-ci ilədək proqnozu işlənib hazırlanmışdır. Proqnoz hesablamaları sosial xidmət

sferasının kompleks qiymətləndirilməsinə, bu sahənin xidmətlərinə ehtiyacı olanlar kontingentinin obyektiv tələbatlarının müəyyənləşdirilməsinə, burada inkişafın resurs təminatının real imkanlarına istinad edir.

Proqnoz hesablamaları, sosial xidmət sferasının gələcək dövr üçün inkişaf göstəricilərinin hesablanması prosesini (sxemini) tamamilə formallaşdırmaq imkanı verən ekonometrik modellərin köməyi ilə aparılmışdır.

Sosial xidmət sferası proqnozunun qurulması sxemi aşağıdakı, hər birində proqnozun öz spesifik məsələləri həll olunan funksional bloklardan ibarətdir: 1.Demoqrafiya bloku. 2. İstehsal bloku. 3. Dövlət büdcəsi resursları bloku. 4. Sosial sferanın sahələri. 5. Sosial xidmət sferası növləri bloku.

Sosial xidmət göstəricilərinin proqnoz işləmələrinin sxemi şəkil 8-də göstərilir. Bu sxemdə, perspektivdə ardıcıllıqla həll olunması tələb olunan məsələlər əks etdirilir.




Şəkil 8. Sosial xidmət sferasının xarakteristikalarının proqnoz hesablamalarının blok-sxemi

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Demoqrafik xarakterisikalardan sərəncamımızda olan respublika əhalisinin 2025-ci ilədək AR DSK-da hesablanmış sayının proqnoz qiymətlərinə istinad etdik. Bu göstəricilərin proqnozu trend modelləri

əsasında hesablanır. Proqnoz hesablamaları alqoritmi tərtib edildikdən sonra proqnoz göstəricilərinin hesablanmasının əsasında duran struktur əmsallarının qiymətləri verilir.

Proqnoz hesablamaları nəticəsində gələcək dövr üçün sosial xidmət sferasının gostəriciləri, o cümlədən, onun sahələrinin inkişafı üçün ayrılacaq vəsaitin həcmi və strukturu əldə edildi.

Hesablamalar göstərir ki,, dövlət büdcəsində sosial inkişaf xərcləri, 2015-ci ilə nisbətən, 2020-ci ilədək 2,25 dəfə, 2025-ci ildə isə 3,6 dəfə artacaq.

Gələcəkdə də sosial sferanın resurs təminatının inkişafının təşəkkül tapmış tendensiyaları davam edərsə, proqnoz dövrünün sonuna sosial xərclərin həcmi, müvafiq olaraq, təhsilə 3,0 dəfə, səhiyyəyə – 5,2 dəfə, sosial müdafiə və sosial təminata – 2,0 dəfə artacaq. Belə olduqda, Dövlət büdcəsi xərclərində onların payı artacaq.

Sosial xidmət strukturunun proqnoz hesablamalarının alqoritmi əsasında proqnozlar müəyyən edilmiş (Cədvəl 3) və məlum olmuşdur ki, perspektivdə sosial təminat xərclərinin ümumi həcmində xüsusi çəkisinə görə ikinci yeri əlillik müavinətləri tutacaq.

Yaşa görə xidmət alan vətəndaşların sayı və bu məqsədlərə ayrılan müavinətlərin məbləğləri ildən-ilə artmaqdadır.

Cədvəl 3

**Sosial xidmətin ayrı-ayrı tərkib hissələrinin strukturunun proqnozu**

| İllər / Göstərici | 2015 | | 2020 | | 2025 | |
|---|---|---|---|---|---|---|
| | Mln man. | % | Mln. man. | % | mln. man. | % |
| Sosial müdafiə və sosial təminata cəmi, o cümlədən: | 2150 | 1 | 3000 | 1 | 4300 | 1 |
| Ünvanlı sosial yardım | 240 | 11,2 | 270 | 9,0 | 300 | 7,0 |
| Müavinətlər: yaşa görə | 9,6 | 0,4 | 12 | 0,38 | 15 | 0,34 |
| əlilliyə görə | 110 | 5,1 | 165 | 5,5 | 250 | 5,8 |
| ailə başçısını itirməyə görə | 27 | 1,3 | 30 | 1,0 | 35 | 0,81 |
| sağlamlıq imkanları məhdud olan 18 yaşadək uşaqlar | 55 | 2,6 | 60 | 2,0 | 67 | 1,6 |

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| kommunal, nəqliyyat və d. xidmətlərə görə | 7 | 0,3 | 7,5 | 0,25 | 8 | 0,19 |
| penitensiar müəssisələrində cəza çəkməkdən azad edilmiş şəxslərə | 35 | 1,6 | 45 | 1,5 | 55 | 1,3 |

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Proqnoza uyğun olaraq, gələcəkdə sosial təminat xərclərinin ümumi həcmində növbəti pilləni kommunal, nəqliyyat və digər xidmətlərə görə müavinətlər tutacaq. Beləliklə, sosial xidmətin inkişaf perspektivlərinin tədqiqi göstərdi ki, xidmət alan vətəndaşların və bu məqsədlərə ayrılan vəsaitin həcmi ildən ilə artacaq.

**8. Sosial xidmət sferasının tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi.**

Tədqiqat işində sosial xidmət sferasının dinamik tendensiyalarının aparılmış təhlili, həmçinin bu sahənın inkişaf göstəricilərinə aid proqnoz hesablamaları, dövlətin bu sahənın tənzimlənməsinin effektivliyinin artırılması üzrə həyata keçirdiyi transformasiya tədbirlərinin çərçivələrini xarakterizə etməyə imkan vermişdir.

Sosial xidmət sferasının təkmilləşdirilməsi məqsədilə tənzimləyici təsirlərin səmərəsinin artımı da, öz növbəsində, xarici mühitdə dəyişikliklərin təsiri altında baş verir. Bu sferanın ayrı-ayrı komponentlərinin inkişafı xüsusiyyətlərini də nəzərə almaq vacibdir. Bununla əlaqədar, sosial xidmətin dövlət tənzimləməsi mexanizminin təkmilləşdirilməsi prosesini alqoritm şəklində təsvir etmək olar (bax: şəkil 9).

Bizim fikrimizcə, sosial xidmətin tənzimlənməsi mexanizmlərinin təkmilləşdirilməsi iqtisadiyyatın inkişafının strateji prioritetləri əsasında həyata keçirilməlidir. İdarəedici təsirlərin hazırlanması və reallaşdırılması vaxtı idarəetmə ierarxiyasının bütün səviyyələrində sosial xidmət sferasının fəaliyyəti prosesində müəyyən vasitələrdən istifadə etməyin məqsədəuyğunluğu bu prioritetlər şərtləndirir. Sosial xidmət sferasının inkişafı konsepsiyasında əks edilmiş inkişaf strategiyası uzunmüddətli dövrdə bu sahənin iqtisadi və təşkilati problemlərinin həllinə, innovasiyaların aktiv tətbiqinə yönəldilmişdir. Strategiya sosial xidmət sferasının inkişafının sahəvi prioritetlərini, yəni yüksək iqtisadi və sosial nəticələrə nail olmaq üçün dövlət büdcəsinin maliyyə resurslarının birinci növbədə yönəldiləcəyi struktur komponentlərini müəyyən edir. Sosial xidmət sferasında mövcud məsələlərin həllinə prioritetli yanaşmalar da bu strategiya əsasında formalaşdırılmalıdır.




Şəkil 9. Sosial xidmət sferasının tənzimlənməsi mexanizminin təkmilləşdirilməsi modeli

*Mənbə: Müəllif tərəfindən hazırlanmışdır*

Bizim fikrimizcə, sosial xidmətlərin çeşidinin genişləndirilməsi büdcədənkənar maliyyələşdirmə mənbələrinin prioritetli istifadəsi əsasında həyata keçirilməlidir. Bu, xidmətlərin yeni növlərinin təbliği prosesinə (o cümlədən sosial xidmətlərin prioritetli növlərini güzəştli kreditləşdirmə mexanizmindən istifadə edilməsi əsasında) dövlət dəstəyini istisna etmir.

Standartlaşdırma prosedurlarının optimallaşdırılması sosial xidmətlərin istehlakçılarının və bu xidmətlərin istehsalçılarının maraqları arasında tarazlıq yaradılmasına nail olmağa yönəldilməlidir. Bu, sosial xidmətlər sahəsində aktual problemləri effektiv həll etməyə imkan verəcək.

Bizim fikrimizcə, təqdim edilən xidmətlərin keyfiyyətinin dövlət tənzimləməsi mexanizmini qəbul edilən idarəetmə qərarlarının şəffaflığının artırılması əsasında optimallaşdırmaq məqsədəuyğundur. Bu, sosial xidmətlər sahəsinin inkişaf dinamikasına müsbət təsir göstərəcək.

Bizim fikrimizcə, ərazi üzrə və sahəvi uyğunsuzluqların aradan qaldırılması yalnız büdcə maliyyələşdirməsindən istifadə əsasında həyata keçirilməməlidir. Sosial xidmətlər sferasının bəzi struktur elementlərində dolayı tənzimləmə metodlarına üstünlük verilməsi daha məqsədəmüvafiqdir. Bu halda resursların səmərəli şəkildə və bazar iqtisadiyyatının tələblərinə riayət edilmək şərtilə yenidən bölgüsü təmin edilir.

Sosial xidmətlər sferasının dövlət tənzimləməsinin göstərilən hədəf oriyentirlərinə nail olmaq üçün aşağıdakı məsələlər həll edilməlidir:

- sosial xidmətlər sahəsinin gələcək inkişafında respublikanın davamlı iqtisadi inkişafı tələblərinə cavab verən perspektivli sahəvi prioritetlərin formalaşdırılması;
- sosial xidmətlər sahəsinin inkişafı problemlərinin həlli zamanı dövlət büdcəsinin və yerli büdcələrin resurslarından istifadənin əsas istiqamətlərinin müəyyən edilməsi;
- sosial xidmətlər sferasının ayrı-ayrı tərkib hissələrinin inkişafına dair dövlət proqramları kompleksinin işlənib hazırlanması;
- sosial xidmət sahələrinin inkişafının ərazi xüsusiyyətlərinin, büdcədənkənar mənbələrdən əlavə vasitələr cəlb edilməsi imkanlarının aşkar edilməsi.

Praktiki olaraq bütün sosial xidmət sahələrində inkişaf üçün əlverişli şəraitə və stimullara ehtiyac duyulur, çünki ölkəmizdə əhalinin sosial xidmətlərlə təmin olunması üzrə müasir tələblərdən gerilik davam edir. Lakin biz belə hesab edirik ki, Azərbaycanda sosial xidmət sferasının effektivliyini artırmaq üçün respublika əhalisinin aztəminatlı hissəsinin ən yüksək dərəcədə ehtiyac duyduğu sahələrin sürətli inkişafına maksimum qüvvə və resurslar yönəldilməsi məqsədəuyğundur.

Xüsusilə mürəkkəb həyat şəraitində olan və sosial xidmətlər üzrə peşəkar mütəxəssislərin köməyi olmadan bu vəziyyətdən çıxa bilməyən vətəndaşlar sırasından sosial xidmətlərin istehlakçılarının hədəf qruplarının maraqlarını nəzərə almaqla, aşağıda göstərilən tədbirlər bu işin ayrı-ayrı istiqamətləri hesab edilməlidir:

1. Əlillərin (ilk növbədə əmək fəaliyyətinə yararlı yaşda olan əlillərin və əlil uşaqların) sosial bərpası;

2. Ahıl vətəndaşlara sosial xidmətin təkmilləşdirilməsi;

3. Uğursuz ailələrin, çoxuşaqlı ailələrin, həmçinin çətin vəziyyətdə və ya sosial baxımdan təhlükəli şəraitdə olan uşaqların sosial bərpası;

4. Müəyyən yaşayış yeri olmayan, o cümlədən azadlıqdan məhrumetmə yerlərindən azad olunmuş şəxslərin sosial ələbaxımlığının aradan qaldırılması.

Bütövlükdə, yuxarıda sadalanmış tədbirlərin reallaşdırılması respublikada ərazilər üzrə diferensiasiya edilmiş sosial xidmətlər sistemi yaratmağa imkan verəcək, təqdim edilən sosial xidmətlərin əlyetərliliyini və yüksək keyfiyyətini təmin edəcək.

**Dissertasiya işinin əsas müddəaları müəllifin dərc olunmuş aşağıdakı məqalə və tezislərində öz əksini tapmışdır:**

1. Musayev E.Ə.“Sosial siyasətin tərkib hissəsi kimi sosial xidmətlərin mahiyyəti və əhatə dairəsi” Əmək və Sosial problemlər elmi əsərlər toplusu №1(14)2014 səh.125 Bakı-2014

2. Musayev E.Ə. “Sosial xidmətlər sahəsində təşkilatlanma, idarəetmə və sosial iş” AMEA-ın Xəbərləri. İqtisadiyyat №1 2014 səh. 119. Bakı-2014

3. Musayev E.Ə “Sosial xidmətlərin yaranması və inkişaf tarixi” Kooperasiya elmi-praktiki jurnalı. №2(33)-2014 səh.27 Bakı-2014

4. Musayev E.Ə “Regional iqtisadi inkişafın təmin olunmasında əhalinin sosial müdafiəsi məsələləri” Regional iqtisadi siyasət və Kooperasiya münasibətlərinin inkişafı. Beynəlxalq elmi-praktiki konfransın materialları.səh-307. Bakı, 22 noyabr 2014

5. Musayev.E.Ə “Sosial xidmətlər sahəsində müasir beynəlxalq təcrübə” Kooperasiya elmi-praktiki jurnal. №1 (36) 2015 səh.-20.

6. Musayev E.Ə “Sosial xidmət sahəsində rəqabət mühütünün yaradılması yolları” Ümummilli lider Heydər Əliyevin anadan olmasının 92-ci ildönümünə həsr olunmuş “regional idaretmə: innovativ yanaşmalar və perespektiv imkanlar. Respublika elmi-praktiki konfransın materialları. Aprel 2015. Bakı-Azərbaycan. Bakı-2015. Səh.-122

7.Мусаев Э,А, Нормативно-правовые механизмы регулирования сфер социального обсулуживания в Азербайджание, Инвестиция; Науково-практичний журнал, №20 жовмень 2014, стр,-70,

8. Мусаев Э,А, Современное состояние социальных услуги в Азербайджание, XXVI Международная научно-практическая конференция «Трансформация экономических теорий и процессов» СБОРНИК ТЕЗИСОВ, 18,1 0,2014 г, Санкт-Петербург стр,-67

9. Musayev E.Ə "Sosial xidmət sferasının dövlət tənzimlənməsinin əsas istiqamətləri" Əmək və Sosial problemlər elmi əsərlər toplusu №2(16)2015 səh.140 Bakı-2015

10. Musayev E.Ə. "Müasir iqtisadi şəraitdə sosial xidmət resurslarının təkmilləşdirilməsi məsələləri" Azərbaycan Dövlət İqtisad Universitetinin Elmi Xəbərləri Cild-3 Oktyabr-Dekabr 2015. Səh.109

11. Musayev E.Ə. "Müasir iqtisadi şəraitdə sosial xidmət sferasının inkişaf göstəricilərinin proqnozlaşdırılması" AMEA-nın XƏBƏRLƏRİ. İQTİSADİYYAAT SERİSAYSI. Elmi-praktik jurnal. səh.52. 2015-4 (iyul-avqust)

12. Musayev E.Ə. "Sosial xidmət sferası və mümkün islahatlar" AMEA-nın ELMİ ƏSƏRLƏR jurnalı. Səh. 112. 2015-5(sentyabr-oktyabr)

13. Musayev E.Ə "Sosial xidmətlərin metodoloji xüsusiyyətlərinin effektivliyinin təyin edilməsi" İpək Yolu Azərbaycan Universitetinin elmi jurnalı. Səh-83.. 2015-4

14. Musayev E.Ə. "Azərbaycanda sosial xidmətlər sahəsinin təşkilati-iqtisadi problemləri" Əmək və Sosial problemlər elmi əsərlər toplusu №1(17)2016 səh.130 Bakı-2016

*Мусаев Еюб Афшар оглы*

## НАПРАВЛЕНИЯ РЕГУЛИРОВАНИЯ СФЕРЫ СОЦИАЛЬНЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ

## РЕЗЮМЕ

Диссертация состоит из введения, трех глав, заключения и списка использованной литературы.

Во введении обоснована актуальность темы, сформулированы цели, задачи, определены теоретические и методологические основы исследования, раскрывается научная новизна и практическая значимость диссертации.

В первой главе «Теоретико-методологические основы регулирования сферы социальных услуг» исследованы социальные услуги как один из важных приоритетов государства в области социальной политики; обобщены концептуальные основы формирования ресурсов социальных услуг и их использования; проанализированы организация и регулирования сферы социальных услуг в зарубежных странах.

Во второй главе «Анализ и оценка текущего состояния регулирования в сфере социальных услуг в Азербайджане» оценено текущее состояние развития сектора социальных услуг в Азербайджане, исследованы особенности регулирования сферы социальных услуг, анализированы механизмы социальной защиты населения для обеспечения эффективности социальных услуг.

В третьей главе «Направления совершенствования регулирования сферы социальных услуг в Азербайджане» разработана стратегия развития сектора социальных услуг, осуществлен прогноз показателей развития сектора социальных услуг, даны рекомендации по совершенствованию механизмов регулирования сектора социальных услуг.

*Eyyub Afshar Musayev*

**DIRECTIONS OF REGULATION OF SOCIAL SERVICES AREA IN AZERBAIJAN**

## RESUME

The dissertation consists of an introduction, three chapters, conclusion and bibliography.

In the introduction have been grounded topicality of the theme, articulated goals, objectives, defined theoretical and methodological bases of research, and disclosed scientific novelty and practical significance of the dissertation.

In the first chapter "Theoretical and methodological bases of social services regulation"have been studied: social service as one of the most important state priorities in the area of social policy; conceptual bases of formation of social services resources and their use; organization and management of social services in foreign countries.

In the second chapter "Analysis and assessment of the current state of regulation in the area of social services in Azerbaijan" have been assessed the current state of development of the social services sector in Azerbaijan,have been investigated the bases of regulation of social services, have been analyzed mechanisms of social protection of the population to ensure the effectiveness of social services in the country.

In the third chapter of "Directions of improving regulation of social services in Azerbaijan" have been designed the development strategy of the social services sector, have been predicted the indicators of the social services sector, have been given the recommendations on the improvement of mechanisms of regulation of the social services sector.

In the final part of the dissertation have been summarized the findings and proposals with theoretical and practical significance.

Formatı 60x84 1/16. Həcmi 1 ç.v.
Sayı 100. Sifariş 130.

"Ulu" istehsalat-kommersiya mətbəəsində
hazır diopozitivlərdən istifadə olunmaqla çap edilmişdir.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**АЗЕРБАЙДЖАНСКИЙ ГОСУДАРСТВЕННЫЙ**
**ЭКОНОМИЧЕСКИЙ УНИВЕРСИТЕТ**

На правах рукописи

**Мусаев Эюб Афшар оглы**

# НАПРАВЛЕНИЯ РЕГУЛИРОВАНИЯ СФЕРЫ СОЦИАЛЬНЫХ УСЛУГ В АЗЕРБАЙДЖАНЕ

**Специальность**: 5304.01- Виды экономической деятельности

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени**
**доктора философии по экономике**

**БАКУ-2016**